TIL VA MADANIYAT

O'ZBEKISTON

# UZBEKISTAN
## LANGUAGE & CULTURE

ISSN 2181-922X

2024 Vol. 4

tsuull.uz
uzlc.tsuull.uz

ISSN 2181-922X

# O‘ZBEKISTON:
## TIL VA MADANIYAT

# UZBEKISTAN:
## LANGUAGE AND CULTURE

2024 Vol. 4

tsuull.uz

uzlc.tsuull.uz

Alisher Navoiy nomidagi Toshkent davlat oʻzbek tili va adabiyoti universiteti

**Bosh muharrir:** Shuhrat Sirojiddinov

**Bosh muharrir oʻrinbosari:** Nodir Jo'raqo'ziyev

**Mas'ul kotib:** Ozoda Tojiboyeva

**Tahrir kengashi**

Hamidulla Dadaboyev, Mustafo Bafoyev, Samixon Ashirboyev, Shodmon Vohidov (Tojikiston), Qozoqboy Yoʻldoshev, Farxod Maqsudov, Adham Ashirov, Zohidjon Islomov, Bahodir Karimov, Almaz Ülvi (Ozarbayjon), Shamsiddin Kamoliddin, Roza Niyozmetova, Aftondil Erkinov, Uzoq Joʻraqulov, Sulton Normamatov, Dilnavoz Yusupova, Dilorom Ashurova, Nozliya Normurodova, Odinaxon Jamoldinova, Ziyoda Teshaboyeva.

**Tahrir hay'ati**

Nazef Shahrani (AQSH)
Elizabetta Ragagnin (Italiya)
Ahmadali Asqarov (Oʻzbekiston)
Isa Habibbeyli (Ozarbayjon)
Akmal Nur (Oʻzbekiston)
Akrom Habibullayev (AQSH)
Bahtiyar Aslan (Turkiya)
Emek Üşenmez (Turkiya)
Abdulaziz Mansur (Oʻzbekiston)
Timur Xoʻjaoʻg'li (AQSH)
Tanju Seyhan (Turkiya)
Xisao Komatsu (Yaponiya)
Alizoda Saidumar (Tojikiston)
Nikolas Kantovas (Buyuk Britaniya)
Akmal Saidov (Oʻzbekiston)
Mark Toutant (Fransiya)

"Oʻzbekiston: til va madaniyat" jurnali – lingvistika, tarix, adabiyot, tarjimashunoslik, san'at, etnografiya, falsafa, antropologiya va ijtimoiy tadqiqotlarni oʻrganish kabi sohalarni qamrab olgan akademik jurnal.

Jurnal bir yilda toʻrt marta chop etiladi.

Jurnalning maqsadi – koʻrsatilgan sohalarga oid dolzarb mavzulardagi bahs-munozaraga undaydigan, yangi, innovatsion g'oyalarga boy, oʻz konsepsiyasiga ega boʻlgan tadqiqotlarni nashr etishdir.

Ingliz, rus va oʻzbek tillaridagi, shuningdek, boshqa turkiy tillarda yozilgan maqolalar qabul qilinadi. Iqtisodiy tahlillar hamda siyosatga oid maqolalar e'lon qilinmaydi.

Jurnalda kitoblarga yozilgan taqrizlar, adabiyotlar sharhi, konferensiyalar hisobotlari va tadqiqot loyihalari natijalari ham e'lon qilinadi. Mualliflar fikri tahririyat nuqtayi nazaridan farq qilishi mumkin.

Alisher Navoiy nomidagi Toshkent davlat oʻzbek tili va adabiyoti universiteti.

Oʻzbekiston, Toshkent, Yakkasaroy tumani, Yusuf Xos Hojib koʻchasi, 103.

**Email:** uzlangcult@gmail.com
**Website:** www.uzlc.tsuull.uz

Alisher Navo'i Tashkent State University of the Uzbek Language and Literature

**Editor-in-Chief:** Shuhrat Sirojiddinov

**Deputy Editor in Chief:** Nodir Jurakuziev

**Executive secretary:** Ozoda Tajibaeva

**Editorial board**

Hamidulla Dadaboev, Mustafo Bafoev, Samikhan Ashirboev, Shodmon Vohidov (Tajikistan), Qozoqboy Yuldashev, Farhad Maksudov, Adham Ashirov, Zohidjon Islomov, Bahodir Karimov, Almaz Ülvi (Azerbaijan), Shamsiddin Kamoliddin, Roza Niyozmetova, Aftondil Erkinov, Uzoq Jurakulov, Sulton Normamatov, Dilnavoz Yusupova, Dilorom Ashurova, Nozliya Normurodova, Odinakhan Jamoldinova, Ziyoda Teshabaeva.

**Editorial Committee**

Nazif Shahrani (USA)
Elisabetta Ragagnin (Italy)
Ahmadali Asqarov (Uzbekistan)
Isa Habibbeyli (Azerbaijan)
Akmal Nur (Uzbekistan)
Akrom Habibullaev (USA)
Bahtiyar Aslan (Turkey)
Emek Üşenmez (Turkey)
Abdulaziz Mansur (Uzbekistan)
Timur Kozhaoglu (USA)
Tanju Seyhan (Turkey)
Hisao Komatsu (Japan)
Alizoda Saidumar (Tajikistan)
Nicholas Kontovas (Great Britain)
Akmal Saidov (Uzbekistan)
Marc Toutant (France)

"Uzbekistan: Language and Culture" is an academic journal that publishes works in the field of linguistics, history, literature, translation studies, arts, ethnography, philosophy, anthropology and social studies.

The journal is published four times a year.

The purpose of the journal is to publish the results of the latest research that are rich in new, innovative ideas and has its own concept, which stimulates debate on topical issues in these areas.

The language of articles can be English, Russian and Uzbek. Other Turkic languages are also welcome. We do not publish economic analyses or political articles.

In addition to research articles, the journal announces book and literary work reviews, conference reports and research project results.

The authors' ideas may differ from those of the editors'.

Alisher Navo'i Tashkent State University of the Uzbek Language and Literature.
103, Yusuf Khos Hojib, Yakkasaray, Tashkent, Uzbekistan.

**Email:** uzlangcult@gmail.com
**Website:** www.uzlc.tsuull.uz

## MUNDARIJA

### Lingvistika

**Dilafruz Satimova**
O‘zbek adabiyotida substandart leksik birliklarning lingvokulturologik tadqiqi va ularning ingliz tiliga tarjimasi..........6

**Umida Mahmudova**
Raqamli texnologiyalar diskursi tarjimasida sun’iy intellekt ChatGPT va Google Translate tarjimon dasturlarining farqi..........23

**Zilola Tillabayeva**
Samarqand viloyati qarluq shevalariga doir leksemalarning shakl va ma’no munosabatiga ko‘ra turlari..........37

### Adabiyotshunoslik

**Orzigul Hamroyeva**
Abdurahmon Sa’diyning “Amaliy ham nazariy adabiyot darslari” darsligining tarkibiy tuzilishi..........49

**Alimuhtor Muhtorov**
Nizomiy Ganjaviy siymosining milliy o'zlikni anglashdagi roli..........63

**Vəzufə Xudiyeva**
Azərbaycanda mövcud biblioqrafik ehtiyatlar sisteminin inkişafı..........76

**Kishin Xajiboyev**
“Daryosini yo‘qotgan qirg‘oq” romani syujetida inson va tabiat konsepsiyasi ifodasi..........87

### Tarix. Manbashunoslik

**Kemal Yavuz Ataman**
Ikki yetakchi sahoba: Qusam bin Abbos va Abu Ayyub al-Ansoriy va ikki muhim shahar: Samarqand va Istanbul..........101

### Sotsiologiya. Psixologiya

**Komil Kalanov**
Diniy ramziy belgilar tizimining tarixiy va ijtimoiy-madaniy tavsifi.......120

## CONTENT

### Linguistics

**Dilafruz Satimova**
Linguoculturological Study of Substandard Lexical units in Uzbek Literature and their Translation into English.............................................6

**Umida Mahmudova**
The Difference Between Artificial Intelligence ChatGPT and Google Translate in the Discourse of Digital Technologies Translation...................23

**Zilola Tillabaeva**
Types of Lexemes in the Karluk Dialects of Samarkand Region According to their form and meaning.....................................................................37

### Literature

**Orzigul Hamroeva**
The Structure of Abdurahmon Sa'di's Textbook "Practical and Theoretical Literature Lessons"....................................................................................49

**Alimukhtor Mukhtarov**
The Role of Nizami Ganjavi's Image in Understanding National Identity..........................................................................................................................63

**Vazufa Khudieva**
Development of the Existing Bibliographic Resources System in Azerbaijan.....................................................................................................................76

**Kishin Khajiboev**
The Expression of the Concept of man and nature in the plot of the novel "The shore that lost its river"...............................................................................87

### History. Source studies

**Kemal Yavuz Ataman**
Two Pioneer Companions, Two Important Cities in the Conquest Qutham ibn Abbas & Abu Ayyub al-Ansari, Samarkand & Istanbul..........101

### Sociology. Psychology

**Komil Kalanov**
A Historical and Socio-Cultural Description of the System of Religious Symbols.........................................................................................120

ISSN 2181-922X 76—86

# Azərbaycanda mövcud biblioqrafik ehtiyatlar sisteminin inkişafı

Vəzufə Xudiyeva[1]

**Abstrakt**

Biblioqrafik məlumatın yaradılması bütün dövrlərdə informasiya təminatı prosesinin ayrılmaz və mühüm sahəsi olmuşdur. Fəaliyyət sahəsi kimi biblioqrafiya sənəd dövriyyəsinin sürətləndiyi müasir dövrdə də sənədlə informasiya istifadəçisi arasında informasiya mübadiləsi prosesində əsas həlledici amil kimi öz informativ funksiyasını saxlamaqla inkişaf edir. Bu baxımdan biblioqrafik informasiyanın əsas mövcud formalarından biri olan biblioqrafik ehtiyatların yaranma tarixi və inkişaf xüsusiyyətləri həmişə tədqiqat obyekti olaraq qalır.

Hazırkı biblioqrafik resursların sənəd-tələb sistemindəki mövqeyi daha innovativ informasiyanın istifadəçilərə daha operativ və operativ şəkildə çatdırılması ilə səciyyələnir. Azərbaycan Respublikasında cari biblioqrafik nümunələrinin yaradılması prosesi Azərbaycan Dövlət Kitab Palatasının fəaliyyəti ilə yaradılmış, M.F. Axundov adına Milli Kitabxana inkişaf edərək indiki inkişaf səviyyəsinə çatmışdır.

Məqalədə Azərbaycan Respublikasında mövcud milli biblioqrafik ehtiyatların yaradılması prosesi araşdırılır, mövcud biblioqrafik fəaliyyət mərkəzlərinin mətni və statistik göstəriciləri müqayisə edilir.

**Açar sözlər:** *biblioqrafik ehtiyatlar sistemi, Kitab Palatasının fəaliyyəti, M.F.Axundov adına Milli Kitabxananın mövcud biblioqrafik resurslar sistemi.*

## Giriş

Elm və texnologiyanın sürətli inkişafı özlüyündə sənəd axının inkişafına gətirib cıxarır ki, bu da sənət və istifadəçi arasında biblioqrafik kommunikasiyanı labüd edir. Belə ki, biblioqrafik vəsaitlərin biblioqrafik informasiyanın yaradılması və tələbatçılara çatdırılması ilə əlaqədar fəaliyyət sistemində xüsusi rolu vardır. Bu baxımdan informasiya mərkəzlərinin biblioqrafik fəaliyyətinin mühüm tərkib hissəsini biblioqrafik məhsul istehsalı təşkil edir ki, bu da informasiya cəmiyyətinin vacib faktorlarındandır. Professor

[1] *Xudiyeva Vəzufə Hüseynağaq* – Bakı Dövlət Universiteti, İnformasiya və sənəd menecmenti falultəsinin "Sənəd Menecmenti" kafedrasının müəllimi.
**E-mail:** vazufe@mail.ru
**ORCİD İD**: 0000-0002-5376-8385
**Alıntı için:** Xudiyeva, V. H. 2024 "Azərbaycanda mövcud biblioqrafik ehtiyatlar sisteminin inkişafı". *O'zbekiston: til va madaniyat* 4: 76 – 86.

Zöhrab Əliyev biblioqrafik məhsulu sənədlərin biblioqrafiyalaşdırılmasının və informasiya tələbatçılarına biblioqrafik xidmətin eyni zamanda həm nəticəsi, həm də vasitəsi hesab edirdi [Əliyev 1978].

Azərbaycan Dövlət biblioqrafiyasının mərkəzi hesab edilən Kitab Palatası 1925-2002-ci illər ərzində fəaliyyət göstərərək , mükəmməl biblioqrafik nümunələr sistemi yaratmışdır. ADKP 1926-cı ildən başlayaraq nəşr etdirdiyi "Kitab letopisi" cari xarakterli biblioqrafik vəsait olaraq respublika ərazisində yeni çapdan çıxan kitablar və kitabçalar haqqında biblioqrafik məlumatlar verilirdi. 1960-cı ildən Kitab Palatası cari biblioqrafik vəsaitlərə aid olan ən mükəmməl göztəricini – "Birillik Azərbaycan Kitabiyyatı" nı nəşr etdirməyə başlayır. Göstəricinin ən böyük naliyyəti ondan ibarət idi ki, bu vəsaitdə respublika ərazisində nəşr olunan və dilindən, mövzusundan və yanrından aslı olmayaraq bütün kitablar haqqında dölğun biblioqrafik məlumat verilirdi.

**Əsas hissə**

M.F.Axundov adına Milli Kitabxana sənədlərin biblioqrafiyalaşdırılması, o cümlədən cari biblioqrafik vəsaitlərin hazırlanması istiqamətində səmərəli fəaliyyət göstərmişdir. Ümumilikdə, kitabxana tərəfindən hazırlanmış biblioqrafik vəsaitləri növ anlayışı baxımından aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Məqsəd və oxucu istiqamətinə görə.
2. Funksional məqsədinə görə.
3. Biblioqrafiyalaşdırma obyektlərinə görə.
4. Biblioqrafiyalaşdırılmış sənədlərin nəşr dili baxımından.
5. Biblioqrafiyalaşdırılmış sənədlərin nəşr yeri baxımından.
6. Biblioqrafiyalaşdırma metodlarına görə.
7. Biblioqrafik vəsaitlərin formasına görə.
8. Yazı formasına görə.

Azərbaycanda cari biblioqrafik vəsaitlər sisteminin formalaşması istiqamətindəki Milli Kitabxananın fəaliyyəti geniş, əhatəli və çoxsahəli olmuşdur. Belə ki, XX əsrin 70-ci illərindən başlayaraq Milli Kitabxananın yaratdığı biblioqrafik vəsaitlər sistemində cari biblioqrafik informasiya vəsaitlərinin xüsusi çəkisi getdikcə artmışdır. Buna əsas səbəb hələ 60-cı illərdən başlayaraq keçmiş Sovetlər Birliyində dövlət elmi-texniki informasiya sisteminin sürətlə formalaşması idi ki, bu da öz növbəsində kitabxanaların cari biblioqrafik informasiya yaradılması proseslərinin keyfiyyətcə yeni səviyyəyə qaldırılması üçün zəmin yaratmışdı [Əliyev 2007].

Bu dövrdə Azərbaycanda elmi, iqtisadiyyat, sənaye və

aqrar kompleksi, eyni zamanda humanitar elmlər, mədəniyyət və incəsənət sahələrinin cari biblioqrafik informasiya təminatı üzrə kitabxanalararası ixtisaslaşma meylləri baş verirdi. Belə ixtisaslaşmaya münasib olaraq Respublika Elmi-Texniki İnformasiya İnstitutu Respublika Elmi-Texniki Kitabxanası ilə birlikdə neft sənayesi, neft maşınqayırması, energetika, tikinti və s. sahələrə dair siqnal informasiya və informasiya vərəqələri nəşr edir, Azərbaycan EA Mərkəzi Elmi Kitabxanası təbiət elmləri, Respublika Elmi Tibb Kitabxanası səhiyyə və tibb elmləri üzrə cari biblioqrafik informasiya vəsaitləri tərtib edib fərdi və kollektiv informasiya tələbatçılarını cari vəsaitlərlə təmin edirdi. Belə cari informasiya vəsaitləri müvafiq sahələrə dair yeni nəşr olunmuş materiallar haqqında çevik, operativ, dolğun və ardıcıl məlumat vermək funksiyalarını yerinə yetirir, mütəxəssislərə öz sahələrinə dair sənəd axınını müntəzəm şəkildə izləmək imkanları yaradırdı.

Bu bir faktdır ki, həmin illərdə Azərbaycanda formalaşan cari biblioqrafik vəsaitlər sisteminin yaradılmasında Milli Kitabxananın da özünəməxsus fəaliyyət modeli formalaşmağa başlamışdır. Bu funksiyanın əsası hələ kitabxananın 1976-cı ildən respublika miqyasında mədəniyyət və incəsənət üzrə elmi informasiya mərkəzi kimi fəaliyyəti təşkil edirdi. SSRİ Mədəniyyət Nazirliyinin 1972-ci il 28 avqust 505 saylı əmrinə müvafiq olaraq müttəfiq respublikalarda eləcə də Azərbaycanda Mədəniyyət Nazirliyinin 1975-ci il tarixli 204 saylı əmri ilə Milli Kitabxanada "Mədəniyyət və incəsənət üzrə elmi informasiya şöbəsi"nin yaradılması ilə cari biblioqrafik vəsaitlərin yaradılması prosesi intensiv xarakter almağa başladı [Маммадов, Ісмайлов 2023, 15–20].

Onu da qeyd etməliyik ki, Milli Kitabxana cari biblioqrafik vəsaitlərin yaradılması sahəsində əvvəllərdə müəyyən təcrübə əldə etmişdir. Hələ XX əsrin 60-cı illərində kitabxana müxtəlif dövlət idarələri və təşkilatlara, rəhbər işçilərə yeni ədəbiyyat haqqında biblioqrafik siyahılar və bülletenlər tərtib edib göndərirdi. Məsələn, "Not-musiqi şöbəsi" 1969-cu ildən etibarən müntəzəm olaraq Azərbaycan və rus dillərində fonda yeni daxil olan kitabların, notların və qrammafon vallarının siyahısını tərtib edib, Bakının mədəniyyət və incəsənət müəssisələrinə göndərirdi [Əliyev 2007]. Lakin bu proses ardıcıl və dolğun şəkildə həyata keçirilmirdi. Bundan əlavə fərdi və kollektiv istifadəçilərə göndərilən cari biblioqrafik materiallar dövri xarakter daşımır, istifadəçilərin informasiya tələbatı xüsusiyyətlərinə tam uyğun gəlmir, eyni zamanda əksər hallarda operativliyini itirirdi [Ismayilov, Mahammadli, Khudiyeva

2022, 31-34].

Biblioqrafiyaşünaslıq nəzəriyyələrində cari biblioqrafiya yeni meydana gələn sənədlər haqqında ardıcıl məlumat vermək funksiyasını yerinə yetirməli, daha dəqiq desək, tələbatçılara öz sahələrində sənəd axınını daim izləmək və bu axında hərtərəfli bəhrələnmək imkanı əldə etməlidir. Bu vəzifə xüsusiyyəti cari biblioqrafik informasiyanın dolğunluğuna və operativliyinə, sənədin meydana gəlməsi ilə informasiyanın çatdırılması arasındakı fasilənin minimuma endirilməsinə səy göstərilməsini tələb edir. Cari biblioqrafik informasiya mənbələrinin yaradılmasının və tələbatçıya çatdırılmasının dövrülüyü məsələsi əhəmiyyətli faktorlardan biridir [Ісмайлов, Халілова 2023, 101–109].

Qeyd etmək lazımdır ki, cari biblioqrafik informasiya təminatında dövrülük meyarı özündə bir sıra digər amilləri də birləşdirir. Belə ki, hər bir cari biblioqrafik vəsait özündə əks etdirdiyi sənəd axınının həcmi, dil, məzmun tərkibi baxımından istifadəçilərin biblioqrafik informasiya tələbatına tam relevant olmalıdır.

Cari biblioqrafik informasiya fəaliyyəti prosesində dövrülük, operativlik, dolğunluq və müvafiq istifadəçilərin informasiya tələbatı xüsusiyyətləri ilə uzlaşmalıdır. Bu baxımdan Milli Kitabxananın mədəniyyət və incəsənət üzrə formalaşmağa başlayan cari elmi-informasiya fəaliyyətinin qarşısında duran vəzifələr mürəkkəb və çoxsahəli idi. Bu geniş fəaliyyət sahəsinin mühüm istiqamətini mədəniyyət və incəsənət üzrə yeni ədəbiyyat haqqında biblioqrafik Informasiyasını özündə əks etdirən nəşrlərin hazırlanması idi. Milli Kitabxananın “Mədəniyyət və İncəsənət üzrə elmi informasiya şöbəsinin Əsasnaməsi”ndə göstərilirdi ki, “şöbənin qarşısında duran əsas vəzifə kitabxananın bazası əsasında respublikanın Nazirlər Soveti, Mədəniyyət Nazirliyi Aparatı işçilərinə, eyni zamanda mədəniyyət və incəsənət sahəsində çalışan alimlərə, mütəxəssislərə və tədqiqatçılara müvafiq sahə üzrə nəşr olunan ədəbiyyat haqqında müntəzəm olaraq məlumat verməkdir”.

Eyni zamanda, əsasnamədə daha sonra qeyd edilir ki, mədəniyyət və incəsənət üzrə cari biblioqrafik göstəricini çap etməkdə əsas məqsəd “Mədəniyyət və incəsənət üzrə nəşr olunan məlumatı toplu halında əks etdirməkdən, bu işdə təkrarçılığı aradan qaldırmaqdan,göstəricinin məzmunu və formasını vahid hala salmaqdan ibarətdir” [Ismayilov, Khudiyeva 2022, 593–600].

Milli Kitabxananın mədəniyyət və incəsənət üzrə cari biblioqrafik göstəriciləri “Mədəniyyət və incəsənət haqqında yeni ədəbiyyat” adı ilə 1976-cı ildən nəşr edilməyə başladı. Bu orqan 2

ayda bir dəfə 4 çap vərəqi həcmində 500 nüsxə tirajla çap edilirdi. Hər bir buraxılışa daxil edilən materiallar Azərbaycan və rus dillərində verilmişdi. Burada kitablar ilə yanaşı dövri mətbuat materialları da öz əksini tapırdı. Ümumiyyətlə, bu cari biblioqrafik informasiya orqanının məzmunu Milli Kitabxanaya daxil olan ədəbiyyat ilə şərtlənirdi. Materialların sistemləşdirilməsi o dövrdə SSRİ-nin elmi kitabxanaları üçün zəruri sayılan kitabxana-biblioqrafiya təsnifat sənədləri əsasında aparılırdı. Bu təsnifat sisteminə əsasən hər bir buraxılış 2 əsas bölməyə: "Mədəniyyət" və "İncəsənət" bölməsindən ibarət olur, daxildə isə materialların məzmunundan asılı olaraq yarım bölmələr formalaşırdı. Məsələn, "Mədəniyyət" bölməsinin yarımbölmələri bir qayda olaraq aşağıdakılardan ibarət olurdu:

- Mədəniyyət və mədəni quruculuğa aid rəhbər materiallar;
- Mədəniyyət nəzəriyyəsi. Fəlsəfi-sosioloji problemlər;
- Beynəlxalq mədəni əlaqələr;
- Mədəni-maarif işi;
- Klub işi. Mədəniyyət evləri;
- Xalq yaradıcılığı. Bədii özfəaliyyət;
- Muzey işi;
- Tarix və mədəniyyət abidələrinin mühafizəsi;
- Mətbuat;
- Radio və televiziya verilişləri;
- Kitabxana işi. Biblioqrafiya.

**Nəticə**

Qeyd etmək lazımdır ki, hər bir buraxılışda "Kitabxana-biblioqrafiya təsnifat cədvəlləri"nə uyğunlaşdırılmış standart rubrikalarla yanaşı, respublikanın mədəni həyatını əks etdirən materiallar üçün də əlavə yarımbölmələr ayrılırdı. Mənbələrin biblioqrafik təsvirləri əsasən o dövrdə SSRİ-də qəbul edilmiş QOST 7.15–79 dövlət standartı əsasında aparılırdı. Bu dövri cari orqan 1982-ci ilə qədər "Mədəniyyət və incəsənət üzrə yeni ədəbiyyat" adı ilə çıxırdı. 1982-ci ildən isə çox düzgün olaraq "Azərbaycan mədəniyyəti və in-cəsənəti haqqında yeni ədəbiyyat" adı ilə nəşr edilməyə başladı, bununla da SSRİ-nin digər kitabxanalarının, xüsusən Ümumittifaq Dövlət Kitabxanasının nəşr etdiyi müvafiq informasiya bülletenlərindəki materialların burada təkrarlanmasına son qoyuldu və bu nəşr sırf Azərbaycanşünaslıq xarakteri aldı [Халілова, Іскандарлі 2023, 91–95].

Bununla əlaqədar göstəricinin strukturu Azərbaycan mədəniyyət və incəsənətinin milli xüsusiyyətlərinə, respublikamızın

mədəni həyatına daha uyğun şəkil aldı. 1991-ci ildən başlayaraq burada "Xarici ədəbiyyatda Azərbaycan mədəniyyəti və incəsənəti" rubrikası təşkil edildi.1980-1982-ci illərdə bu cari biblioqrafik informasiya göstəricilərində hər il orta hesabla 2000-2500 adda kitab və dövri mətbuat materialları əks etdirilib fərdi və kollektiv istifadəçilərə, o cümlədən şəhər və rayon kitabxanalarına çatdırılırdı. Maddi çətinliklərlə əlaqədar bu qiymətli informasiya vəsaitinin nəşri 1993-cü ildə dayandırıldı. 90-cı illərin əvvəllərində Milli Kitabxananın Mədəniyyət və incəsənət üzrə elmi informasiya şöbəsi tərəfindən bəhs etdiyimiz vəsaitlə yanaşı 2 adda cari biblioqrafik orqanlar da nəşr edilirdi.

Bunlar "Respublika mədəni həyatının xronikası" və "Mədəniyyət və incəsənət üzrə respublika qəzetlərinin xülasəsi" adı ilə buraxılan biblioqrafik icmal xarakteri daşıyan dövri orqanlar idi. Rotaprint üsulu ilə ayda 2 dəfə buraxılan "Respublika mədəni həyatının xronikası"nda Azərbaycanın mərkəzi qəzet və jurnallarında ölkəmizin mədəni həyatı ilə əlaqədar dərc edilmiş yazıların icmalı xronoloji ardıcıllıqla əks etdirilirdi. Həcmcə 10-15 səhifədən ibarət olan bu informasiya bülletenində hər ayın 15 günü ərzində Azərbaycanın mədəni həyatında, incəsənət aləmində baş verən mühüm hadisələr (sərgilər, yeni tamaşalar, musiqi əsərləri, konsertlər və s.) haqqında qısa referatlar verilirdi.

Materiallar Azərbaycan və rus dillərində təqdim edilirdi. Təəssüf ki, həmin bülleten yalnız 1990-cı ildə nəşr edilmiş və cəmi 19 buraxılışı olmuşdur. Milli Kitabxananın ikinci cari informasiya bülleteni özündə mədəniyyət və incəsənət məsələlərinə dair qəzet məqalələrinin icmalını əks etdirirdi. Ayda bir dəfə rotoprint üsulu ilə çap edilən bu orqan əsasən yaradıcı kollektivlərə və şəxslərə göndərilirdi. Həcmcə 6–14 səhifə olan bu cari biblioqrafik informasiya orqanında respublika dövri mətbuatında bir ay ərzində mədəni-maarif və kitabxana işi, musiqi, kino, teatr, təsviri sənət, heykəltəraşlıq, muzey işi və s. məsələlərə dair dərc edilmiş resenziyaların, məlumat xarakterli yazıların biblioqrafik siyahısı, hər bir yazıya dair qısa annotasiya verilirdi. 1990-1993-cü illərdə bəhs etdiyimiz orqanın 18 buraxılışı olmuşdur. 1993-cü illərin əvvəllərində Milli Kitabxananın mədəniyyət və incəsənət üzrə cari biblioqrafik nəşrlər istiqamətindəki fəaliyyəti maliyyə problemləri ilə əlaqədar dayandırılmış və hələ də bərpa olunmamışdır. Tədqiqat illərində Milli Kitabxananın cari biblioqrafik informasiya vəsaitləri sistemində "Kənd təsərrüfatına dair yeni kitablar" adlı dövri cari biblioqrafik göstəriciləri də

mütəxəssislərə yeni meydana gələn müvafiq sənədlər haqqında ardıcıl məlumat vermək baxımından əhəmiyyətli idi. 1974-1985-ci illərdə ildə 2 dəfə, 1985–1991-ci ilərdə isə ildə 1 dəfə buraxılan bu orqan Milli Kitabxananın fonduna məcburi nüsxələr kimi daxil olan Azərbaycan və Rus dillərindəki nəşrləri əhatə edirdi.

Bütün materiallar kitabxana-biblioqrafiya təsnifatı cədvəlləri əsasında qruplaşdırılırdı. 500 nüsxədə çap edilən bu göstərici ilk növbədə kənd təsərrüfatı ilə məşğul olan dövlət orqanlarına, elmi-tədqiqat müəssisələri kitabxanalarına, həmçinin bütün MKS-lərə göndərilirdi. Əlbəttə, haqqında bəhs etdiyimiz göstəriciləri yalnız şərti olaraq cari biblioqrafik vəsaitlər sisteminə aid etmək olar. Çünki onlar mütəxəssislərə kənd təsərrüfatına dair mənbələri operativ izləmək imkanı yaratmışdı. Biblioqrafiyaşünaslıq nəzəriyyəsində qəbul edildiyi kimi, "Cari biblioqrafik məlumatvermə gündəlik, həftəlik, ikihəftəlik, aylıq və ya rüblük ola bilər" [Əliyev 1978]. Məlumatvermə prosesində operativlik prinsipinə əməl edilmədiyi halda belə nəşrlər sadəcə olaraq dövri nəşr kimi qiymətləndirilə bilər [Azərbaycan Dövlət Kitabxanasının hesabatları, 1968 –2023].

Bu baxımdan Milli Kitabxananın "Kənd təsərrüfatına dair yeni kitablar" məlumat göstəriciləri kənd təsərrüfatına dair illik, yəni ardı davam edən biblioqrafik nəşrə daha yaxın idi. Bununla yanaşı, belə nəşrin Respublika Kənd Təsərrüfatı Kitabxanası ilə əlaqələndirilmiş şəkildə hazırlanması onun məzmun baxımdan dolğun olmasına təminat verirdi. Çünki Milli Kitabxanaya məcburi nüsxə prinsipi əsasında daxil olan kitablar tipoloji baxımdan kənd təsərrüfatı ədəbiyyatını tam əhatə etmirdi. Belə ki, Milli Kitabxanaya kənd təsərrüfatı üzrə istehsalat ədəbiyyatı, dərsliklər, deponə edilmiş nəşrlər, bir sıra normativ sənədlər daxil olmurdu. Belə nəşrlər yalnız Respublika Kənd Təsərrüfatı Kitabxanası tərəfindən alınırdı. Bütün bunlar Milli Kitabxana tərəfindən həmin vəsaitin Respublika Kənd Təsərrüfatı Kitabxanasının iştirakı ilə hazırlanmasını məqsədyönlü edirdi. Bütün bunlar ardı davam edən nəşrin respublikamızın aqrar sahədə çalışan mütəxəssislərini, rayon və kənd kitabxanaları üçün kənd təsərrüfatının müxtəlif sahələrinə dair sənəd axınını izləməkdə xeyli əhəmiyyət kəsb etdiyini təsdiqləyir. Keçən əsrin 70-80-ci illərində Milli Kitabxana daha 3 adda biblioqrafik dövri və ardı davam edən nəşrlər hazırlamaq təşəbbüsündə olmuş və bu istiqamətdə xeyli işlər görmüşdür.

Belə ki, kitabxana 1971–1989-cu illər ərzində cari ədəbiyyatı əvvəlcə yarımillik, sonra isə müxtəlif vaxtlar ərzində əks etdirən

"Azərbaycan xarici mətbuatda" (rus dilində) adlı biblioqrafik göstəricilər hazırlayıb elmi ictimaiyyətə təqdim etmişdir. 1971-1973-cü illərdə bu seriya ilə 6 buraxılışda biblioqrafik göstərici nəşr edilmişdir [Azərbaycan Dövlət Kitabxanasının hesabatları, 1968-2023]. 1980-ci ildə 1975–1978-ci illər ərzində, 1989-cu ildə isə 1978-1988-ci illər ərzində (9) xarici ölkələrin mətbuatında Azərbaycan haqqında dərc edilmiş materialların biblioqrafik göstəriciləri meydana gəlmişdir. Bu vəsaitlər 70–80-ci illərdə kapitalizm və sosializm sistemləri arasında gedən ideoloji mübarizədən doğan biblioqrafik nümunələr kimi dəyərləndirilə bilər. Onlar əsasən Azərbaycan Respublikasının nailiyyətlərini göstərən, ilk növbədə o dövrdə mövcud sosialist ölkələrinin (Polşa, Bolqarıstan, Vyetnam, ADR, Çexoslovakiya və s.) mətbuatında dərc olunmuş yazıları əks etdirirdi. Kapitalist ölkələrinin mətbuatında dərc edilmiş neqativ yazılar isə ciddi senzuraya məruz qalaraq xüsusi fondlarda mühafizə edilirdi və şübhəsiz, heç bir biblioqrafik orqanda öz əksini tapa bilməzdi.

1978-ci ildən başlayaraq Milli Kitabxana rus dilində "Azərbaycan SSRİ mətbuatında" başlığı ilə əvvəlcə yarımillik, sonra isə illik biblioqrafik göstəricilərin tərtibi ilə də məşğul olurdu. 1978-1991-ci illərdə bu başlıq altında həmin göstəricinin 10 buraxılışı olmuşdur. Bu vəsaitlərdə əsasən Azərbaycan yazıçılarının SSRİ respublikalarında nəşr olunmuş tərcümə əsərləri, ədəbi-tənqidi məqalələr, ölkəmizin iqtisadi, mədəni həyatı ilə əlaqədar dövri mətbuatda rus dilində dərc olunmuş məqalələr əks etdirilirdi. Bütün materiallar SSRİ xalqlarının adlarının (ruslardan başqa) əlifba sırası ilə düzülür, daxildə isə yenə müəlliflərin və ya sərlövhələrin əlifba sırasına riayət edilirdi.

1986-cı ildə həmin göstəricilərdə əks etdirilmiş sənədlərin bir qismi, həmçinin 1972–1978-ci illərin materialları külliyyat halında "Azərbaycan sovet xalqları ailəsində" başlığı ilə müstəqil göstərici şəklində çap olunmuşdur. Bu göstəriciyə 1972–1978-ci ildə dərc edilmiş materiallar daxil edilmişdir. Xeyli zəhmət və axtarışlar nəticəsində meydana gələn bu dövri və vaxtaşırı məlumat nəşrləri ilk növbədə siyasi xarakter daşıyan vəsaitlər idi. Onlar mürəkkəb ideoloji mübarizələr və kommunizm ideologiyası ehkamlarının hökm sürdüyü bir şəraitdə SSRİ geopolitik məkanında guya möhkəm xalqlar dostluğunun mövcudluğu ideyasına xidmət edən vasitələr hesab olunurdu. Bu ideyaların uydurma olması XX əsrin 90-cı illərində Sovet imperiyasının dağılması, milli konfliktlər, mürtəce separatçılıq və Ermənistanın Azərbaycana təcavüzü kimi faciəli

hadisələrdə özünü daha aydın şəkilə göstərdi.

**Ədəbiyyatlar**

Əliyev, Z.H. 1978. *Azərbaycan biblioqrafiyasının tarixi* [1920–1970]. (Mətn): Dərs vəsaiti; red. Ə. T. Xələfov; AzSSR Ali və Orta İxtisas Təhsili Nazirliyi, S. M. Kirov ad. ADU – Əliyev, Zöhrab Hüseyn oğlu. Əməkdar mədəniyyət işçisi, pedaqoji e. n., prof. 1933–2019. Bakı: ADU.

Əliyev, Z.H. 2007. *Azərbaycan biblioqrafiyasının tarixi (Mətn)* : Kitabxanaçılıq-informasiya fakültəsində təhsil alan tələbələr üçün dərslik /; red. N. İ. İsmayılov; rəyçilər N. İ. İsmayılov, S.A. Sadıqova, Əliyev, Zöhrab Hüseyn oğlu. Əməkdar mədəniyyət işçisi, pedaqoji e. n., prof. 1933-2019. Bakı: Bakı Universiteti.

Маммадов, А., Ісмайлов Н. 2023. *Національні бібліотеки: типологія, основні функції та сучасні напрями розвитку.* Науково-теоретичний альманах Грані, 26(1), 15–20.

Ismayilov, N., Mahammadli, D., Khudiyeva, V. 2022. *Methods and Means of Information Search in the Digital Environment. Scientific and Theoretical Almanac Grani*, 25 (5), 31–34.

Ісмайлов, Н, Халілова, Н. 2023. *Нові види бібліографічних ресурсів в електронному середовищі.* Науково-теоретичний альманах Грані, 26 (5), 101–109.

Ismayilov, N, Khudiyeva, V. 2022. *Assessment of digital knowledge and research skills and overview of on going work at the national level, forecasting.* Concepts of digitization. *Technium Social Sciences Journal*, *35*, 593–600.

Халілова, Н, Ісkандарлі А. 2023. *Бібліометричні параметри для оцінювання дослідників*. Науково-теоретичний альманах Грані, *26*(6), 91–95.

Axundov, M.F. adına Azərbaycan Dövlət Kitabxanasının məlumat-biblioqrafiya şöbəsinin 1968–2023-ci illər üzrə hesabatları.
https://www.millikitabxana.az/

# Development of the existing bibliographic resources system in Azerbaijan

Vazufe Khudieva[1]

**Abstract**

The creation of bibliographic information has been an integral and important area of the information provision process at all times. As a field of activity, bibliography as the main decisive factor in the process of information exchange between the document and the information user is developing while maintaining its informative function even in the modern era when the flow of documents is accelerating. From this point of view, the history of creation and development characteristics of bibliographic resources, which are one of the main forms of existence of bibliographic information, always remain an object of research. The position of the current bibliographic resources in the document-demand system is characterized by the delivery of more innovative information to users in a more prompt and efficient manner. The process of creating current bibliographic samples in the Republic of Azerbaijan was created by the activity of the Azerbaijan State Book Chamber, M.F. The National Library named after Akhundov developed and reached its current level of development.

The article examines the process of creating current national bibliographic resources in the Republic of Azerbaijan, and compares the text and statistical indicators of existing bibliographic activity centers.

**Key words:** *current bibliography, system of bibliographic resources, activity of the Book Chamber, current system of bibliographic resources of the National Library named after M.F. Akhundov.*

**References**

Əliyev, Z.H. 1978. *Azərbaycan biblioqrafiyasının tarixi* [1920-1970]: Dərs vəsaiti; red. Ə. T. Xələfov; AzSSR Ali və Orta İxtisas Təhsili Nazirliyi, S. M. Kirov ad. ADU - Əliyev, Zöhrab Hüseyn oğlu. Əməkdar mədəniyyət işçisi, pedaqoji e. n., prof. 1933-2019. Bakı: ADU.

Əliyev, Z.H. 2007. *Azərbaycan biblioqrafiyasının tarixi*: Kitabxanaçılıq-informasiya fakültəsində təhsil alan tələbələr üçün dərslik; red. N. İ. İsmayılov ; rəyçilər N. İ. İsmayılov, S.A. Sadıqova, Əliyev,

[1] *Khudiyeva Vazufa* – Baku State University, teacher.
**E-mail:** vazufe@mail.ru
**ORCID ID**: 0000-0002-5376-8385
**For sitation:** Khudieva, V. 2024. "Development of the existing bibliographic resources system in Azerbaijan". *Uzbekistan: Language and Literature* 4: 76 – 86.

Zöhrab Hüseyn oğlu. Əməkdar mədəniyyət işçisi, pedaqoji e. n., prof. 1933-2019. Bakı: Bakı Universiteti.

Mammadov, A., Ismaylov N. 2023. *Nasionalni biblioteki: tipologiya, osnovni funksiї ta suchasni napryami rozvitku.* Naukovo-teoretichniy almanax Grani, 26(1), 15-20.

Ismayilov, N., Mahammadli, D., Khudiyeva, V. 2022. *Methods and Means of Information Search in the Digital Environment. Scientific and Theoretical Almanac Grani*, 25 (5), 31-34.

Ismaylov, N, Xalilova, N. 2023. *Novi vidi bibliografichnix resursiv v yelektronnomu seredoviщi.* Naukovo-teoretichniy almanax Grani, 26 (5), 101-109.

Ismayilov, N, Khudiyeva, V. 2022. *Assessment of digital knowledge and research skills and overview of on going work at the national level, forecasting.* Concepts of digitization. *Technium Social Sciences Journal*, *35*, 593-600.

Xalilova, N, Iskandarli A. 2023. *Bibliometrichni parametri dlya osinyuvannya doslidnikiv*. Naukovo-teoretichniy almanax Grani, *26*(6), 91-95.

Axundov, M.F. adına Azərbaycan Dövlət Kitabxanasının məlumat-biblioqrafiya şöbəsinin 1968-2023-ci illər üzrə hesabatları.

https://www.millikitabxana.az/